

“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.
Heydər Əliyev

*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 20 (1061) 24 sentyabr 2019-cu il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## İlham Əliyev “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə iştirak edib





**Dövlətimizin başçısı tədbirdə nitq söylədi.**

## Şəhidin xatirəsi ehtiramla yad edildi

***Saloğlu qəsəbəsində şəhid Namazov Asim Əhməd oğlunun adını daşıyan məktəbin həyətində şəhidin büstünün açılış mərasimi keçirildi. Tədbirdə çıxış edən Ağstafa rayon İcra Hakimiyyətinin başçısı cənab Nizaməddin Quliyev prezident İlham Əliyev tərəfindən şəhidlərimizə və şəhid ailələrinə göstərilən hörmət və ehtiramdan danışdı. O, qeyd etdi ki, bu gün Azərbaycan xalqı müstəqil və suveren bir dövlətdə yaşayırsa, bu, şəhidlərimizin göstərdikləri qəhrəmanlıqlar sayəsindədir. Ona görə də hər bir azərbaycanlı şəhidlərin adını daim uca tutmalı, onların ailə üzvlərinə, doğmalarına hörmətlə yanaşmalıdır. Bu, hər bir insanın vətəndaşlıq borcu olmalıdır.***

Tədbir iştirakçıları şəhidin döyüş həyatından, onun qəhrəmanlığının gənc nəslə bir nümunə olmasından danışdılar. Qarabağ uğrunda vuruşaraq canlarından keçən qəhrəmanların bu cür yad edilməsinin vacibliyini qeyd etdilər.

Tədbirdə şəhidin anası Adilə Namazova öz çıxışında bu vətənpərvər və xeyirxah əməl üçün təşəbbüs göstərənlərə şəhidin ailəsi adından vətən uğrunda canlarını qurban vermiş qəhrəman oğulların xatirəsinə göstərilən diqqət və qayğıya görə dövlət başçısına öz minnətdarlığını bildirdi.



## “Könüllü”lərə sertifikat verildi



***İcra Hakimiyyəti “Könüllülük fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz strukturlarında da könüllülük fəaliyyətini daha da genişləndirir. Bu məqsədlə Ağstafa rayon İcra Hakimiyyəti Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əlaqələndirməklə ölkədə gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təşkil edilməsinə başlamışdır. Könüllülük fəaliyyətinə gənclər 2 ay müddətinə qoşulmuş, müxtəlif sosial bacarıqları və əmək vərdişləri aşılayan təlimlərdə iştirak etmişlər.***

Ağstafa rayon İcra Hakimiyyəti üzrə gündəlik olaraq 2 növbədə könüllülük fəaliyyəti təşkil olunmuşdur. Bu günlər Ağstafa rayon İcra Hakimiyyətində təcrübə keçən “Könüllü”lərə sertifikatlar verilib. Tədbirdə icra başçısı qeyd edib ki, Azərbaycanda geniş vüsət alan könüllülük hərəkatının əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda da bu ideologiya cənab Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Respublika ərazisində baş tutan bütün beynəlxalq tədbirlərdə, eləcə də dövlət orqanlarının gündəlik fəaliyyətində könüllülərin misilsiz xidmətlərinin olduğunu vurğulayıb. Könüllülər vətəndaşlarla keçirilən səyyar qəbullarda və eləcə də gündəlik iş proseslərində aktiv şəkildə iştirak ediblər. Daha sonra könüllülər çıxış edərək təcrübə müddətində bir çox biliklərə yiyələndiklərini, Ağstafa Rayon İcra Hakimiyyəti aparatının kollektivi tərəfindən qayğı ilə əhatə olunduqlarını və gələcək fəaliyyətlərində bu təcrübələrdən istifadə edəcəklərini bildiriblər. Sonra 5 könüllüyə Ağstafa rayon İcra Hakimiyyəti tərəfindən sertifikatlar təqdim olunub, xatirə şəkli çəkdirildi.



# Böyük-Kəsik kəndində yeni məktəb binası istifadəyə verildi

***Rayonun Böyük-Kəsik kəndində yeni məktəb binası istifadəyə verildi. Tədbirdə Rayon icra hakimiyyətinin başçısı cənab Nizaməddin Quliyev, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədov, məktəbin pedaqoji kollektivi, şagirdlər, valideynlər və ictimaiyyət nümayəndələri iştirak etmişlər.***

Rayon icra hakimiyyətinin başçısı cənab Nizaməddin Quliyev tədbirdə çıxış edərək qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycanda gənc nəslə hərtərəfli qayğı göstərərək təhsilin inkişafı üçün kompleks tədbirlər həyata keçirilir. Bunun davamı olaraq rayonun Böyük-Kəsik kəndində belə möhtəşəm məktəb kompleksinin tikilərək kənd sakinlərinə hədiyyə olunması çox sevindirici və qürurvericidir.

Tədbirdə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədov, kənd ağsaqqalı Aydın Qurbanov çıxış edərək Böyük-Kəsik kəndində müasir tipli, gözəl məktəb binası inşa olunduğuna görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildirmiş, dövlətin bu qayğısına əməli işləri ilə cavab verəcəklərini, təhsildə yeni uğurlara nail olacaqlarını, müstəqil Azərbaycanımız üçün layiqli vətəndaşlar yetirəcəklərini qeyd etmişlər.

Sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyinin aparat rəhbəri Muxtar Məmmədov və kənd ağsaqqalı Aydın Qurbanov kənd tam orta məktəbinin yeni binasının rəsmi açılışını göstərən lenti kəsmişlər.

Sonda tədbir iştirakçıları məktəbdə yaradılmış şəraitlə tanış olmuşlar.

# Növbəti səyyar görüşlər

## Eynallı kəndi

***İcra başçısı Nizaməddin Quliyev növbəti səyyar görüşü Eynallı kəndində keçirdi. Tədbiri giriş sözü ilə açan Rayon icra hakimiyyətinin başçısı, ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, hərbi qüdrətindən, hökm sürən ictimai-siyasi sabitliyindən geniş söz açıb. Həmçinin Ağstafada son illərdə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri, sosial infrastruktur layihələr, yeni-yeni tikilib istifadəyə verilən sənaye, emal, istehsal və xidmət müəssisələri barədə ətraflı məlumat verdi.***

Sonra səyyar görüşdə iştirak edən kənd sakinlərinin təklif və müraciətləri dinlənildi. Çıxış edən sakinlər, kənd içməli su ilə təmin edən kəhriz quyularının təmir olunmasını, suvarma arxlarının betonlanmasını, "Göl yeri" adlanan ərazidə 1 ədəd subartezian quyusunun qazılmasını, habelə mərkəzi avtomobil yolundan kəndin mərkəzinədək olan yola asfalt örtüyünün salınmasını təklif etdilər. Rayon icra hakimiyyətinin başçısı sakinlərin qaldırdıqları digər məsələlərin həlli istiqamətində aidiyyəti üzrə idarə, müəssisə rəhbərlərinə konkret tapşırıqlar verdi.



## Aşağı Kəsəmən kəndi



***Ölkə rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq Ağstafa rayonu İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev mütəmadi olaraq yerlərdə sakinlərlə görüşərək səyyar qəbullar keçirir. Növbəti belə tədbir rayonun Aşağı Kəsəmən kəndində keçirilmişdir. Tədbirdə rayonun bir sıra rəhbər şəxsləri, Rayon icra hakimiyyətinin məsul işçiləri, eləcə də kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdi.***

Görüşdə icra başçısı ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, mövcud ictimai-siyasi sabitliyindən, həmçinin ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq son illər Ağstafada həyata keçirilən abadlıq-quruculuq işlərindən, yaradılan istehsal, sənaye, xidmət və digər sahələrdən geniş söz açdı. Qeyd olundu ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Ağstafamız sənaye rayonuna çevrilməktədir.

Sonra səyyar qəbulda müraciət və təkliflər dinlənildi. Sakinlər ərazidə yararsız elektrik qaydaları və naqillərin yeniləri ilə əvəz edilməsi, Təpəbaşı məhəlləsinə təbii qaz xəttinin çəkilməsi, ərazidə 1 ədəd subartezian quyusunun qazılması, küçələrə əlavə olaraq içməli su krantlarının qoşulması və qış mövsümündə tam orta məktəbə verilən təbii qazın təzyiqinin artırılması kimi təkliflərlə çıxış etdilər.

Sonda Rayon icra hakimiyyətinin başçısı səyyar qəbulda müraciət və təkliflər irəli sürən vətəndaşları dinlədi. Qaldırılan məsələlərin operativ şəkildə həll olunması istiqamətində konkret tapşırıqlar verildi.

# Hüseyn Arifin-95 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirildi

***Sentyabr ayının 19-da Ağstafa şəhər Yazıçılar evində xalq şairi Hüseyn Arifin-95 illik yubileyinə həsr olunmuş "Şair ömrü ömürlərə bağlıdır" adlı ədəbi-bədii gecə keçirildi. Tədbirdən öncə Yazıçılar evinin qarşısında Hüseyn Arif adına ev muzeyinin təşkil etdiyi sərgiyə baxış keçirildi. Sonra tədbiri giriş sözü ilə Ağstafa rayon İcra Hakimiyyətinin başçısı cənab Nizaməddin Quliyev açaraq xalq şairi Hüseyn Arifin həyat və yaradıcılığı barədə geniş çıxış edərək qeyd etdi ki, Hüseyn Arif ədəbi fəaliyyətə İkinci Dünya müharibəsi illərindən başlayıb, zəngin yaradıcılığı ilə Azərbaycan ədədbiyyatında özünəməxsus yer tutub.***





Azərbaycan təbiətinin möhtəşəm gözəlliyinin vurğunu olan Hüseyn Arif əlinə qələm aldığı gündən təbiəti vəsf edib, onunla daimi təmasda olub, bəlkə də bu səbəbdəndir ki, yazdıqları da təbii, səmimi alınıb. "Həyatı anlayanda həyatdan gedir insan"-deyən Hüseyn Arifin yazdığı şeirlərə mahnılar bstələnmiş, şeirləri daim oxucuların rəğbətinə səbəb olmuşdur. Onun istedadının xalq tərəfindən hər zaman yüksək qiymətləndirildiyi və müxtəlif illərdə Azərbaycan SSR xalq şairi, Azərbaycan SSR Dövlət mükafatları ilə təltif olunduğu qeyd edildi.

Sonra Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov çıxış edərək xalq şairi Hüseyn Arifin Azərbaycan mədəniyyətinə verdiyi töhfələrdən danışdı. Daha sonra Azərbaycan Yazıçılar Birliyinin Qazax filialının sədri Barat Vüsal, "Hüseyn Arif Ədəbi Birliyi"nin sədri Saqif Qaratorpaq, Ağstafa rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli, Ağstafa Regional Mədəniyyət İadrəsinin rəis müavini Gülgün Kərimov çıxış edərək xalq şairi Hüseyn Arifin həyat və yaradıcılığından, xatirələrindən danışdılar.

Tədbirin sonunda musiqiçilər şairin sözlərinə yazılmış mahnılardan ibarət konsert proqramı ilə çıxış etdilər.




***İbrahim Əliyev***



# Dilbaz Atçılıq Təsərrüfatında tikinti-quruculuq işləri sürətlə davam etdirilir

***Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev növbəti dəfə Böyük-Kəsik kəndində yerləşən Dilbaz Atçılıq Təsərrüfatında aparılan tikinti-quruculuq işləri ilə yaxından tanış olub. Burada inşaat işlərinin sürətlə davam etdirildiyi at tövləsi, atları müayinə və müalicə etmək üçün stasionar baytarlıq otağı, yarışlara hazırlamaq üçün cıdır meydanı, yemlərin saxlanması üçün talvar, anbar, ofis və digər binalara baxış keçirərək tikinti işlərinə məsul şəxslərə müvafiq tapşırıq və tövsiyələrini verib.***

İcra başçısı qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizin bütün bölgələrində olduğu kimi, Ağstafa rayonunda da irimiqyaslı sosial infrastruktur layihələr həyata keçirilir, ənənəvi istehsal, emal və digər təsərrüfat sahələrinin bərpası istiqamətində zəruri tədbirlər icra olunur. Belə ki, baramaçılıq, xalçaçılıq kimi sahələrin bərpası, hazırda da nadir at cinslərindən sayılan Dilbaz atlarının yetişdirildiyi təsərrüfatın əsaslı şəkildə yenidən qurulması rayonumuzun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə müsbət təkan verir. Dövlətimizin bu istiqamətdə həyata keçirdiyi işlər nəticəsində yerli əhalinin məşğulluğunun maksimum təmin edilməsinə münbit şərait yaratmaqla yanaşı eyni zamanda tariximizin, mədəniyyətimizin və ümumiyyətlə qədim ənənələrimizin tərənnümü, gələcək nəsillərə çatdırılması deməkdir. Hazırda atçılıq müəssisəsində 12 nəfər daimi işlə təmin olunub. İnşaat işlərinin uğurla davam etdirildiyi müəssisənin tam istifadəyə verilməsindən sonra burada daimi at cinsinin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin görülməsi üçün 1,5 milyon manat vəsait ayrılıb ki, bu da müəssisənin problemlərinin köklü şəkildə həllinə təkan verib.

# Məktəblərdə “Bilik günü” qeyd olundu

***Ötən dərs ili rayonumuzun təhsil işçiləri üçün ən uğurlu illərdən biri oldu. 2018-2019-cu tədris ilində rayon üzrə 643 sinif kompleksində 11120 nəfər şagird təhsil almış, məzunlardan 428 nəfəri ali təhsil müəssisələrinə sənəd vermiş, onlardan 274 nəfəri tələbə adını qazanmışdır. Tələbə adını qazanan gənclərdən 52 nəfəri 500-dən çox , 12 nəfəri 600-dən çox bal toplamışlar. Əlbəttə, qazanılan bu nailiyyətlər müəllimlərin, valideynlərin, şagirdlərin dərs ili dövründə çəkdikləri zəhmətin bəhrəsidir.***

Artıq o aylar arxada qalmış, yeni dərs ilinə start verilmişdr. Sentyabrın 16-da rayonun bütün təhsil müəssisələrində məktəblərin, siniflərin qapıları şagirdlərin üzünə açılmış, yeni dərs ili başlamışdır. Həmin gün ümumtəhsil məktəblərində “Bilik günü” kimi Təhsil Şöbəsinin rəhbərliyi və əməkdaşları, yerli icra hakimiyyəti orqanlarının, ictimaiyyətin nümayəndələri, sabiq məzunlar və valideynlər iştirak ediblər.



qeyd olunmuş və yüksək səviyyəli tədbirlər keçirilmişdir.

Tədbirlərdə Ağstafa Rayon Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirlərdə müəssisə rəhbərləri çıxış edərək yeni tədris ilində qarşıya qoyulan məqsədlərdən, təhsil sahəsində aparılan islahatlardan söz açıb, məktəb məzunlarının qəbul imtahanlarındakı uğurlarından bəhs ediblər.



“Bilik günü”ndə iştirak edən Ağstafa RTŞ-nin nümayəndələri və qonaqlar yeni dərs ilinin başlanması münasibətilə məktəbliləri, valideynləri və müəllimləri təbrik edib, onlara uğurlar arzulayıblar.

Sonra məktəblilərin iştirakı ilə mahnılar və rəqslərdən ibarət konsert proqramı təqdim olunub.

***İ.Əliyev***

# 21 Sentyabr - Beynəlxalq sülh günüdür

***Sülh bəşəriyyətin xilası, müharibə isə onun cinayətidir.***

***(V.Hüqo)***

***Məlumdur ki, cəmiyyət var olduqca, ictimai münasibətlər davam etdikcə insanlar arasında münasibətlər də çoxşaxəliliyini qoruyub saxlayacaq. Kiçik bir nümunə ilə iki insan arasında olan şəxsi münasibətlər də korlana bilir, qitə, din, region və digər sosial meyara görə qrupların qarşıdurması da mümkündür. Sülh dedikdə məhz iki qarşı tərəfdə olan, əks fikirlərə sahib şəxs və ya qrupların anlaşması, razılaşması, bədii formada ifadə etsək, barışması nəzərdə tutulur. Təbii ki, dövlətlər, qruplar, din və digər sosial meyara görə birləşmiş üzvlər arasında olan qarşıdurma nəticəsinə görə daha ağır fəsadlara səbəb olur. Bununla belə, 2 şəxs arasındakı konflikti şərti olaraq müharibənin kiçik forması hesab etsək, onun belə necə əhəmiyyətli olduğunu görərik.***

Hüquqi və siyasi ədəbiyyatlarda sülh dedikdə, ümumbəşəri qaydada dövlətlər arasında olan stabil razılaşma, əmin-amanlıq başa düşülür. Qədim dövrlərdən başlayaraq müasir vaxta qədər zaman-zaman qrup, tayfa, dövlətlər arasında müharibələr saysız-hesabsız insan tələfatı, maddi itkilərlə nəticələnmişdir. Təkcə bunu demək kifayətdir ki, I Dünya Müharibəsində 10 milyondan çox insan ölmüş, 20 milyon insan yaralanmış, iqtisadiyyata ümumilikdə 80 milyard dollar yaxın ziyan dəymişdir. İkinci Dünya Müharibəsində isə hərbi əməliyyatların əhatə etdiyi ərazi Birinci Dünya Müharibəsindəkindən 5,5 dəfə çox idi. Müharibəyə sərf edilən xərclərin miqdarı 4 trilyon ABS dollar olmuşdu. Onların 1 trilyon 117 milyardını sırf hərbi xərclər təşkil etmişdir. İkinci Dünya Müharibəsi zamanı hərbçilərlə yanaşı, dinc sakinlərlə birgə ümumilikdə 60 milyona qədər adam tələf olmuşdu. Bütün bu rəqəmlər sülhün yer üzündə nə qədər əhəmiyyətli bir mövqe olduğunun, onun vacibliyini hər zaman diqqət mərkəzində saxlamaq lazım olduğunun əyani göstəricisidir.

Məhz bu əhəmiyyətin dərk olunmasının nəticəsidir ki, 1981-ci ildən “Beynəlxalq Sülh günü”nü təsis etmişdir. İlk sülh günü 1981-ci ilin sentyabrında qeyd olunub. O vaxtdan Beynəlxalq Sülh günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT Sülh günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirib və bu tarixi ümumdünya atəşkəs günü elan edib.

Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, zorakılıqlar baş alıb gedir, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir. Həqiqətən də dünyanın müxtəlif qütblərində saysız-hesabsız insan qrupları üçün sülh hələ də əlçatmazdır. Çad və Darfurdakı köçkün düşərgələrindən tutmuş Bağdadın darmadağın edilmiş dalanlarınadək sülhə aparan yol uğursuzluq və əzabəziyyətlərlə müşayiət olunmuşdur.

BMT-nin Baş katibinin hər il Beynəlxalq Sülh Günü münasibətilə dünya xalqlarına müraciətlərində deyilir ki, münaqişələrin səngiməsi, atəşkəs rejiminə tərəflərin qarşılıqlı şəkildə əməl etməsi təkcə insanların əmin-amanlıq şəraitində yaşaması deyil, eyni zamanda inkişaf, tərəqqi, bəşəri təhlükəsizliyə təminatdır. Sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində aparılan beynəlxalq miqyaslı tədbirlər nəticəsiz qaldıqca insanların qorxu, vahimə içərisində yaşaması da davam edir. Bütün bunlara baxmayaraq elm və texnologiyanın yüksək surətlə inkişaf etdiyi XXI əsrdə ölkəmizdə və dünyada sülhün daim bərqərar olacağına, millətlərin mehribanlıq və əmin-amanlıq içərisində yaşayacağına ümid edirik.

***Rəhim Hüseynov, Ağstafa rayon prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas***

# Baş prokurorun birinci müavini vətəndaşları qəbul edəcək

**Hörmətli Ağstafa rayon sakinləri!**

**2019-cu il sentyabr ayının 27-də, saat 10:00-da Azərbaycan Respublikasının Baş prokurorunun müavini cənab Namiq Əsgərov tərəfindən Qazax rayon prokurorluğunun inzibati binasında Qazax və Ağstafa rayon sakinlərinin qəbulu keçiriləcəkdir.**

**Qəbula gəlmək istəyən vətəndaşların öncədən Ağstafa rayon prokurorluğunda qeydiyyatı aparılır.**

**Qəbula gəlmək istəyən vətəndaşların müraciətlərində göstərilən xüsusatlar yalnız prokurorluq orqanlarının səlahiyyətlərinə aid olmalıdır.**

***Ağstafa rayon prokurorluğu***

# "Milli Musiqi günü" qeyd olundu

***Ağstafa Regional Mədəniyyət İdarəsi "Milli Musiqi günü" münasbətilə silsilə tədbirləri davam etdirir.***



***Növbəti tədbir Ağstafa şəhər Uşaq Musiqi Məktəbinin konsert zalında keçirildi. Tədbirdə Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov, idarənin bir sıra əməkdaşları, mədəniyyət işçiləri, rayon ictimaiyyəti və KİV nümayəndələri iştirak ediblər.***

Məktəbin müəllim və şagird kollektivi tərəfindən təşkil olunan konsert proqramı tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Proqramda müəllimlərdən ibarət ansamblın müşayiəti ilə şagirdlər tərəfindən dahi bəstəkar Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Koroğlu" operettalarından, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarından və sair əsərlərindən fraqmentlər göstərildi.

Tədbirdə çıxış edən Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov bildirdi ki, Üzeyir Hacıbəyov mədəniyyət tariximizdə dahi bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim kimi xüsusi yer tutur. 1995-ci ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Musiqi Günü kimi qeyd olunması qərara alınıb. Üzeyir Hacıbəyov nəinki Azərbaycan professional musiqisinin banisidir, o həm də yazıçı, mütəfəkkir və ictimai xadim kimi böyük şöhrət qazanıb.

Yüksək səviyyədə keçən tədbirdə çıxış edən musiqiçilərin ifa etdikləri mahnılar alqışlarla qarşılandı.





# "Keşikçidağ" Dövlət Mədəniyyət qoruğuna yürüş təşkil olundu

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Ağstafa rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Avropa İrs Günləri" çərçivəsində "Keşikçidağ" Dövlət Mədəniyyət qoruğuna və İlham Əliyev zirvəsinə yürüş təşkil olunmuşdur. Qoruğun müdiri Musa Mürsəquliyev tədbir iştirakçılarına geniş məlumat vermişdir. O, qeyd etmişdir ki, qoruğun ərazisində 100-ə qədər ilkin və orta əsrlər dövründə yaradılmış süni və təbii mağaralar, ulu əcdadlarımızdan bizə miras qalmış qədim yaşayış yerləri, 100-ə yaxın son tunc və ilkin dəmir dövrünə aid kurqanlar, Qafqaz Albaniyasının yerli əhalisi tərəfindən ilkin orta əsrlərdə sıldırım dik qaya üzərində müdafiə məqsədilə inşa edilmiş, 11 metr hündürlüyündə üçmərtəbəli bir qala, üzü cənub istiqamətinə baxan, bir-birindən 1500 metr aralıda yerləşən və yerli daş materiallarından inşa olunmuş iki alban məbədi, "Keşikçidağ" mağaralar kompleksində yerləşən, yerli əhali tərəfindən "Qüdrət" bulağı kimi tanınan ziyarətgahlar vardır.

Sonra Rayon icra hakimiyyəti başçısının müavini Lalə Eyyubova çıxış edərək Qoruğun xalqımızın və yerli sakinlərin qədim tarixə malik olan mənşəyini, mədəniyyətini, dini-etnik xüsusiyyətlərini əks etdirdiyini bildirdi.

Daha sonra tədbir iştirakçıları qoruğun əməkdaşlarının təşkil etdiyi sərgi ilə tanış oldular. Sonda tədbir musiqili proqramlarla başa çatdı.

# İcbari sığorta-dəymiş zərəri aradan qaldırır!

***Bəşəriyyət yarandığı gündən insanlar bir çox təbii fəlakətlər, yanğın, zəlzələ və digər təbii və texnogen hadisələrlə rastlaşmışlar. Heç şübhəsiz, kainatda baş verən bu cür gözlənilməz hadisələr bir sıra ağır fəsadlar törətmiş, dağıntılara və tələfatlara səbəb olmuşdur. Bütün bunlar isə müliyyət hüququndan asılı olmayaraq insanlara külli miqdarda ziyan vurmuşdur. Amma dəymiş ziyanı aradan qaldırmaq mümkündür və bu funksiyanı iqtisadi qurum kimi sığorta təşkilatları həyata keçirir.***

Sığorta-şəxslərin əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir.

Məlum həqiqətdir ki, bütün dünyada olduğu kimi ölkəmizdə də yanğın hadisəsi baş verir. Təbii ki, bu halda əmlak sahibi həm maddi, həm də mənəvi cəhətdən ziyan çəkir. "İcbari sığortalar haqqında" qanunun əsas məqsədi yanğın və digər hadisələr nəticəsində əhalinin əmlakına və sağlamlığına vurulan zərərin əvəzini vaxtında ödəməklə onların əmlak mənafelərinin qorunmasından və sosial müdafiəsinə əlavə təminat verilməsindən ibarətdir.

Əlbəttə, sığorta diqqətsizliyimiz nəticəsində baş verəcək hadisələrin qarşısını ala bilməz. Nə də ki, mənəvi cəhətdən bizə dəymiş olan yaralarımızı sağalda bilməz. Lakn bu bədbəxt hadisə nəticəsində dəymiş olan zərəri heç olmasa maddi cəhətdən təmin etmiş olur. Daha doğrusu, sığorta hər hansı gözlənilməz hadisə və ya qəzadan zərərçəkən insanların vəziyyətini bərpa etmək, zəzəri aradan qaldırmaq üçün vasitədir.

Yanğın, eləcə də ildırım düşməsi, partlayış və ya bunlarla əlaqədar əmələ gələn tüstü, buxar və ya istilik nəticəsində sığorta olunanın əmlakına, habelə üçüncü şəxslərin əmlakına və sağlamlığına zərərin vurulması sığorta hadisəsi sayılır. "İcbari sığortalar haqqında" qanun sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin əmlakının və üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin həm də yanğından icbari qaydada sığortalanmasını təmin edir.

Əmlakın aşağıdakı hallar nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi sığorta hadisəsi hesab olunmur:

-sığortalının, faydalanan şəxsin və ya onların rəhbər işçilərinin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər;

-sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan istehsal alovunun, yaxud istiliyin təsiri nəticəsində, eyni zamanda yanğın baş verməmişdirsə, belə əmlaka zərərin dəyməsi;

-hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması;

-qrunt sularının səviyyəsinin dəyişməsi;

-suyun borulardan və rezervuardan şaxta vurma, aşınma, yeyilmə, tədricən xarab olma, boruların və rezervuarların təmiri, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması.

Sahibi olduğu daşınmaz əmlakın icbari sığortası müqaviləsini bağlayan və müvafiq icbari sığorta şəhadətnaməsinin adına verildiyi şəxs sığortalı hesab edilir.

Sığorta müqaviləsi sığortalının yazılı ərizəsi və əmlakın dəyəri göstərilməklə sığorta olunmaq üçün təqdim edilən əmlakın siyahısı əsasında sığortaçının nümayəndəsi tətərfindən sığortanın olunanın iştirakı ilə sığorta obyektinə baxılmaqla bağlanılır.

***Rövşən Bəkirov,***
***DNYX-nin Yanğına qarşı təbliğat şöbəsinin böyük təlimatçısı***

# *H.Arif küçəsində aparılan abadlıq işləri sürətlə davam etdirilir*

Ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq Ağstafa rayonunda icra olunan abadlıq-quruculuq tədbirləri çərçivəsində H. Arif küçəsində təmir-tikinti işləri sürətlə davam etdirilir. Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev rayonun bir sıra məsul şəxsləri ilə birlikdə küçədə aparılan işlərə növbəti dəfə baxış keçirdi və müvafiq tapşırıqlarını verdi. Ağstafa şəhərinin mərkəzi küçələrindən biri hesab olan H. Arif küçəsində piyada səkilərinə bruscatka tipli daşlar qoyulur, küçə boyu hasarlar müasir dizaynda yenidən qurulur, 1 saylı çoxmənzilli yaşayış binasının önündə yeni dekorativ hasar inşa olunur, küçə boyunca yeni dekorativ yaşıllıqlar salınıb.

# Etibarsız sayılır

Vurğun qəsəbə sakini, mərhum Axundov Ənvər Həmid oğlunun adına olan Torpağa mülkiyyət hüququna dair JN 208 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Dağkəsəmən kənd sakini Məmmədov Zəkəriyyə Sətdar oğlunun adına olan Torpağa mülkiyyət hüququna dair JN 831 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Qırılı kənd sakini Alıyeva Bənövşə Məhəmməd qızının adına olan Torpağa mülkiyyət hüququna dair JN 143 nömrəli (kod 50200068) Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Muğanlı kənd sakini Əhmədov Kamandar Əhməd oğlunun adına olan Torpağa mülkiyyət hüququna dair JN 221 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Poylu qəsəbə sakini Məmmədov Qəzənfər Xudaverdi oğlunun adına olan Torpağa mülkiyyət hüququna dair JN-235 nömrəli (kod 50209018) Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Poylu qəsəbə sakini Məmmədov Xudaverdi Abdulla oğlunun adına olan Torpağa mülkiyyət hüququnda dair JN 234 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

""N saylı hərbi hissənin hərbi qulluqçusu İsmayılov Elvüsal Natiq oğlunun adına olan ADN-0019816 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

*Redaksiya heyəti*

*L.Eyyubova, L.İsayeva, K.Abbasov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*